və müdaxilə olunma kimi təhrifləri istisna edir. Bununla belə,mətnlərdən nəyinsə itməməsini təsdiq edən dəlil yoxdur. Deməli, mətnin bir hissəsinin itməməsi sadəcə isbat olunmayıb. O kəslər ki, Quran mətnlərinin çoxsaylı ravilər tərəfindən hər üç aspekt yönündən mükəmməl şəkildə hifz olunduğunu,qorunduğunu iddia edirlər, onların yetərli əsası yoxdur."[1]

Seyyid Əbul Həsən əl Amili

Huvənsəri onun haqqında yazır: **"Əbul Həsən əl Amili əl Mövla Muhəmməd Tahir əl Fəttuninin oğludur. Öndə gələn fiqhçilərdən və dərin elmi olan elm adamlarındandır."**[2]

Ağa Bəzrək Tehrani onun haqqında yazır: **"Muşkilətul Ənvar"da deyilən "Miratul Ənvar mişkətul əsrar fi təfsirul Quran" adlı əsər şərəfli, ədalət sahibi Mövla Əbul Həsən ibn Şeyx Muhəmməd Tahir ibn şeyx Əbdulhəmid ibn Musa ibn Əli ibn Fəttuni ən Nəbati əl Amili əl İsfəhaniyə aiddir....Qiymətli və çox dəyərli bir əsərdir. Kitabın girişində üç məqalə yer almaqdadır. Hər məqalədə müxtəlif adda başlıqlar vardır. İkinci məqalədə dörd başlıqlı fəsil vardır ki, Quranın azaldılması məsələsindən bəhs edir."**[3]

Əbul Həsən əl Amili deyir: **"Mənim üçün bu rəyin həqiqət olması bu xəbərlərin öyrənilməsi və araşdırılmasından sonra labüd oldu. Beləliklə, deyə bilərik ki, bu şiəlik məzhəbinin <u>etiqad etməli olduğu zəruri olan məsələlərdəndir</u> və bu xilafətin qanunsuz yolla ələ keçirilməsinin yaratdığı ən böyük səbəblərindəndir."**[4]

Əbul Həsən əl Amili yazır: طاب الكليني يعقوب بن محمد الإسلام ثقة من يظهر الذي أن اعلم الكافي كتاب في المعنى هذا في كثيرة روايات روى لأنه القرآن في والذي نقصان التحريف يعتقد كان أنه ثراه شيخه وكذلك لها، معارض ذكر ولا فيها قدح يتعرض ولم فيه رواه فيما يثق كان بأنه أولاه في صرح الذي فيه غلو ولاه منه مملوءة تفسيره فإن ره القمي إبراهيم بن علي

"Bil ki, Siqatul-İslam adlandırılan Muhəmməd ibn Yəqub əl Kuleyninin sözlərindən aydın olur ki, o Quranın təhrif olunduğuna etiqad etmişdir. Çünki, o bu mövzuda etibar etdiyini bildirdiyi bir çox rəvayyətləri "əl Kafi" kitabında zikr etmişdir. Onun müəllimi Əli ibn İbrahim əl Qummi də eyni əqidəyə sahib olmuşdur."....."Onun təfsir kitabı bu cür rəvayyətlər ilə zəngindir.... Alimlərimizdən Əyyəşi, Numəni, əl-Kufi və bir çox təfsirçilər bu etiqadda Qummi və Kuleyniyə müvafiq olmuşdur. Böyük şeyx Əhməd ibn Əbu Talib ət Təbərsi də, "əl-İhticəc" kitabında bildirdiyi kimi bu etiqadda olmuşdur. Geniş elmə sahib olan şeyximiz Əlləmə (Məclisi) özünün "Biharul Ənvar" kitabında bu əqidəyə müvafiq olmuş və şərhə ehtiyyac duyulmayan bir izah vermişdir. Bu xəbərlərin səhihliyinin araşdırılmasından sonra demək olar ki, bu əqidə bizim <u>məzhəbin (şiəliyin) zəruriyyətlərindəndir</u>."[5] (Yəni, bizim məzhəbdə Quranın təhrif olunmasına etiqad etmək vacibdir!)

---

[1] "Təfsir əl Mizan",12/126

[2] "Ravdətul cənnət", c.7,səh 204,Beyrut "əl Amilinin bioqrafiyası"

[3] "əz Zəria", c.20,səh 264,Beyrut

[4] "Muqaddimətul Burhan", fəsil 4,səh 49

[5] <u>"Təfsirul burhan",səh 83,84;</u> <u>https://www.anti-majos.org/viewtopic.php?f=9&t=158</u>

Eyni kitabda digər səhifədə yazır: **“Bil ki, inkar olunmaz həqiqətdir ki, mütəvatir və digər xəbərlərə əsasən, həqiqətən, Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **vəfatından sonra Quranda dəyişikliklər baş vermişdir. (Səhabələr) Quranı topladıqdan sonra bir çox kəlməni və ayələri yox etmişlər. Allahın endirdiyinə müvafiq olan imam Əlinin cəm etdiyi, oğlu Həsənə yetişənədək qoruduğu və beləliklə də Mehdiyə çatanadək mühafizə olunmuş Qurandır. Bu gün Quran onun (Mehdinin) əlindədir.”**[1]

Haşim ibn Suleyman əl Bəhrani

Hicri 1107-ci ildə dünyasını dəyişmişdir.“Burhan fi təfsirul Quran” adlı əsərin müəllifidir. Hurr Amili onun haqqında yazır:

“Seyyid Haşim ibn Suleyman ibn İsmayıl ibn Abdulcavad əl Hüseyni əl Bəhrani fazil, alim, mahir və fəqih bir şəxsiyyətdir. Təfsir, ərəb dili, rical elmində olduqca mahirdir. Böyük bir Quran təfsiri müəllifidir. Bu əsəri şəxsən gördüm və o kitabdan rəvayyətlər edərək istifadə etdim.”[2]

Yusuf əl Bəhrani yazır: **“Mərhum Hişam ibn Suleyman əl Bəhrani fazil, mühəddis, elmlər dəryası, Məclisidən başqa özündən öncə heç kəsin araşdırmadığı rəvayyətləri araşdıran bir şəxsiyyətdir. Qələmə aldığı əsərlər özünün nə qədər tədqiqatçı olduğunu göstərir. Əsərlərindən biri də altı cildlik “Burhan fi təfsirul Quran”dır.**[3]

Haşim əl Bəhrani yazır: " اعلم أن الحق الذي لا محيص عنه بحسب الأخبار المتواترة الآتية من شيء وسلم وآله عليه الله صلى الله رسول بعد فيه وقع قد أيدينا في الذي القرآن هذا أن وغيرها، الله أنزله لما الموافق ذكر، عما المحرفوظ القرآن وأن والآيات، الكلمات من كثيراً جمعوه الذين وأسقط التغييرات، إلى انتهى أن إلى وهكذا السلام، عليه الحسن ابنه إلى وصل أن إلى وحفظه السلام عليه علي جمعه ما تعالى القائم عليه السلام، وهو اليوم عنده صلوات الله عليه ." البرهان في تفسير القرآن مقدمة ص 36.

"Bil ki, <u>haqq olan və üzərində heç bir şübhənin olmadığı</u> (haqqa) görə, qeyd edilən və başqa mütəvatir xəbərlərə görə, qarşımızda olan bu Qurana, Peyğəmbərdən *(sallallahu aleyhi və səlləm)* sonra dəyişiklikdən bir şeylər qarışmış və toplanan kəlimə və ayələrin çoxu oradan düşürülmüşdür (çıxarılmışdır). (Bu doğrudur ki) Quran zikr olaraq qorunmuş və Uca Allahdan nazil edildiyi kimi, Əli ibn Əbu Talibin nəzdində cəm edilmiş, qorunmuş və ondan da oğlu imam Həsənə çatdırılmışdır. Beləliklə, hər nəsildən ötürülərək, Mehdiyə qədər gəlib çatmışdır. O (Quran) bu gün də, onun (Mehdinin) nəzdindədir."**[4]

Haşim əl Bəhrani həmin kitabın başqa bir yerində isə demişdir: " وعندي في وضوح صحة هذا القول بعد تتبع الأخبار وتفحص الآثار بحيث يمكن الحكم بكونه من ضروريات مذهب التشيع، وأنه من أكبر مقاصد غصب الخلافة فتدبر ." البرهان ص 49

"Bu barədə gələn xəbərləri və təmiz əsərləri (rəvayyətləri) təhqiq etdikdən sonra, mənim nəzdimdə, bu rəy açıq-aydın səhihdir ki, <u>bu (Quranın təhrif edilməsi), şiə məzhəbinin zərurətindəndir</u>. Çünki, o xilafəti qəsb

---

1 “Təfsiru Mişkətul Əsrar”, səh 36; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=178

2 “Əməlul Aməl”,c.2,səh 341

3 “Lulətul bəhreyn”, səh 63-64,Beyrut

4 Haşim əl-Bəhrani, "əl-Burhan fi təfsiril-Quran", səh 36

etməyin ən böyük məqsədlərindəndir və (bu səbəbdən də, bu zaman-zaman) qeyd edilir."[1]

Kəmaləddin Meysəm Bəhrani

əl Huvənsari onun haqqında deyir: **"Möhtərəm, böyük kəlamçı, mahir bir elm adamıdır. Aralarında "Şərhu Nəhcul Bəlağa"da daxil olmaqla bir çox əsərin müəllifidir."**[2]

Yusif əl Bəhrani yazır: **"Məşhur bir alim və filosofdur."**[3]

Meysəm Bəhrani yazır: وأبـ طل ، الـ م صاحف وأحرق خا صة ڈ ابـ ت بـ ن زيـ د ق راءة ع لى الـ ناس جمع اذ ه الـ م نزل الـ قرآن من اذ ه مالا شك

"O (Osman ibn Əffan) adamların hamısını, xüsusilə Zeyd ibn Sabitin qiraətinə cəlb edib müshəfləri yandırıb və şübhəsiz ki, nazil olmuş həqiqi Quranı yox edib."[4]

Şeyx Abbas Qummi

Öz kitabında o Cabirdən hədis rəvayyət edir: **"Qiyamət günü gələndə üç şey şikayət edəcək: Müshəf, məscid və mənim nəslim. Müshəf deyəcək ki, ya Rəbb! Məni yandırdılar və parça-parça etdilər..."**[5]

Abbas Qummi məşhur **"Məfatihul cinan" kitabında Ayətul kursinin "nazil olduğu" kimi oxunmasının böyük savab olmasını qeyd edir və Quranda olmayan bəzi sözlərlə həmin "Ayətul kursi"ni kitabına yazır:**[6]

Nemətullah əl Cəzairi

Huvənsari onun haqqında yazır: **"Alimlərimizin öndə gələnlərindən, dərya kimi elm sahibi olan üləmamızın böyüklərindəndir. Ərəb dili, ədəbiyyat, fiqh və hədis elmlərində dövrünün ən böyük elm adamlarındandır. Təmiz qəlbə, üstün xarakterə və dəyərli əsərlərə sahibdir. Əsərlərindən ən möhtəşəmi "Ənvərun Numaniyyə"-dir."**[7]

Abbas əl Qummi demişdir: **"Nemətullah əl Cəzairi bir çox əsərlərin müəllifi, qədir-qiyməti yüksək, fəzilətli və alim olan bir tədqiqatçı idi. Təfsirdə, hədis və fiqhdə, ərəb dili və ədəbiyyatında öz əsrinin nadir şəxsiyyəti idi."**[8]

---

[1] Haşim əl-Bəhrani, "əl-Burhan fi təfsiril-Quran", səh 49
[2] "Ravdətul cənnət", c.7,səh 204
[3] "Lulətul bəhreyn", səh 253,Beyrut
[4] Meysəm Bəhrani, "Şərh Nəhc əl-bəlağə", c.11,səh 1 Tehran çapı
[5] "Zubdətul əhadis", Abbas Qummi,səh 314, (bunu Xisal kitabından nəql edir)
[6] https://ic.pics.livejournal.com/daleel/61073388/5113/5113_original.jpg
[7] "Ravdətul cənnət", c.8,səh 138
[8] "əl Kunə vəl Əlqab", 3/298; 'Raudətul-Cənnət', 8/138

Əsərinin müqəddiməsində Cəzairi yazır: "**Biz özümüzə söz vermişik ki, bu kitabda pak imamlardan götürdüklərimizdən başqa və rəvayyətçilərin kitablarından götürülmüş və ancaq bizdə düzgün hesab edilən məlumatlardan başqa heç nə yazmayaq. Tarix kitablarına gəldikdə isə, onların əksəriyyətini kütlə yəhudi tarixlərindən köçürmüşdür. Ona görə də onlardan çoxu boş yalanlar və donuq hekayətlərdən ibarətdir**"[1]

Cəzairi yazır: **"Bizim əshabımız və şeyxlərimiz hədis üsulu və digər kitablarında mütəvatir həddə qədər varan çoxsaylı xəbərlərdə nəql etmişlər ki, Quran təhrif olunmuş, ondan bir çox ayələr çıxarılmış, bir çox ayələr isə əlavə olunmuşdur."**[2]

O, yazır: ذلك وفي . السلام عليه المهدي ولدي يظهر حتى أحد يراه ولا اليوم بعد تروه التحريف من خال وهو كثيرة زيادات القرآن

"Əli ibn Əbu Talib Quranı topladıqdan sonra onu gətirdi və dedi: "Bu Allahın nazil olduğu kimi endirdiyi kitabıdır. Ömər cavab verdi: "Biz nə sənə, nədə sənin Quranına ehtiyyac duymuruq. İmam dedi: "Siz bu Quranı bundan sonra mənim övladımdan olan Müdafəçi zühur edənə qədər görməyəcəksiniz."[3]

Nemətullah əl Cəzairi "Ənvərun-numaniyyə" kitabında yazır:

" الأمين الروح به نزل قد الكل وكون الإلهي، الوحي عن -السبع القراءات يعني- تواترها تسليم إن كلاماً القرآن في التحريف وقوع على بصريحها الدالة المتواترة بل المستفيضة الأخبار طرح إلى يفضي 2 / النعمانية الأنوار ." بها والتصديق صحتها على أطبقوا قد عليهم الله رضوان أصحابنا أن مع وإعراباً، ومادة 357.

"Şübhəsiz ki, İlahi vəhydən onun yəni, yeddi qiraətin mütəvatir olmasına təslim olmaq, onların hamısının Ruhul Əmin (Cəbrayıl) vasitəsi ilə nazil olmasını, yayğın olan xəbərlərə görə, həm də sərahətən (açıq-aydın) mütəvatir olaraq dəlalət etməsinə görə, Quranın təhrif olması həm söz, həm maddə və həm də qrammatik olaraq baş vermişdir. Bununla belə, bizim əshabımız (alimlərimiz) bu xəbərlərin səhihliyinə və təsdiqinə müvafiq olmuşlar."[4]

Başqa yerdə yazır: إنكاره، يسعنا لا بحيث منه، والسقط التحريف بوقوع متواترة وأخبارنا ما أن وزعموا أنكروه كيف كتبه بعض في والمرتضى الطبرسي الإسلام وأمين الصدوق من العجيب والعجب الأخبار متواتر رد فيه ان مع المكتوب، هذا هو تعالى الله أنزله

"Quranda təhrif və əksiltmələr haqqında olan xəbərlər o qədər çoxdur ki, onları inkar etmək qeyri mümkündür. Çox qəribədir ki, şeyx Səduq, Təbərsi və Murtəza bəzi kitablarında bunu inkar edirlər və qeyd edirlər ki, Allahın nazil etdiyi Quran elə əlimizdə olan Qurandır. Halbuki, əlimizdə olan çoxsaylı xəbərlər bu rəyi rədd etməyə əsas verir."[5]

Həmçinin, yazır: **"Uydurma xəbərlərin çoxluğuna aldanmaq lazım deyil. Çünki, səhabələr Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **sonra dində bir çox dəyişdirmələr və təhriflər etdilər. Bu əməllərindən ən önəmlisi də Quranı təhrif edib, kəlmələri təhrif etmələridir. Rəsulullahın Əhli beytinə, imamlara**

---

[1] Cəzairi, "əl-Ənvar", müqəddimə

[2] Cəzairi, "Ənvərun-numaniyyə" c.1,səh 526; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=172 majos.org/viewtopic.php?f=9&t=172

[3] Nemətullah əl Cəzairi, "Ənvərun-numaniyyə"c.2,səh 360

[4] Cəzairi, "Ənvərun-numaniyyə" c.2,səh 357; https://anti-majos.org/viewtopic.php?f=9&t=71

[5] "Nurul Ənvar fi şərhi Səhifə Səccadiyyə",səh 63; https://anti-majos.org/viewtopic.php?f=9&t=171

aid olan ayələri, münafiqlər baradə olan və özlərinin etdiyi əməlləri ifşa edən ayələri Qurandan çıxarmışlar."[1]

Cəzairi kitabında yazır: "**Dəyişdirilmiş bu Quranı oxumaq necə caiz ola bilər sualına cavab olaraq deyirik: Xəbərlərdə deyilir ki, onlar (yəni imamlar) öz şiələrinə əmr etmişlər ki, mövlamız Sahibəzzaman zühur edənədək bu mövcud olan Quranı namaz qılarkən və başqa hallarda oxusunlar və onun ehkamlarına əməl etsinlər. Bir zaman bu Quran adamların əllərindən çıxıb səmaya qalxacaq və Əmirəlmöminin tərtib etdiyi Quran üzə çıxacaq. Onda onlar onu oxuyar və onun ehkamlarına əməl edərlər."**[2]

Həmçinin o yazır: **"Xəbərlərdən aydın olduğu kimi Quranı nazil olduğu kimi Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **vəsiyyətinə uyğun olaraq Əmirəlmöminindən başqası toplamamışdır. O, peyğəmbərin vəfatından altı ay sonra yalnız bu işlə məşğul olmuşdu. Quranı nazil olduğu kimi topladıqdan sonra o bunu insanların yanına gətirərək dedi: "Bu Allahın nazil etdiyi kimi cəm olmuş Qurandır." Ömər ibn Xəttab ona dedi: "Bizim nə sənə, nə də sənin cəm etdiyin Qurana ehtiyyacımız yoxdur, bizdə Osmanın yazdığı Quran vardır." Onda Əli** *(əleyhisalam)* **onlara dedi: "Bugündən etibarən siz onu daha görə bilməyəcəksiniz və onu soyumdan gələcək olan Mehdi zühur etməyənə qədər heç kəs görməyəcəkdir." O Quranda çoxlu ziyadə (əlavə) vardır və onda təhriflər yoxdur."**[3]

Əbu Mənsur ibn Əhməd ibn Mənsur Təbərsi

Huvənsari yazır: **"əl İhticac" məzhəb mənsubları arasında tanınan mötəbər bir qaynaqdır. Peyğəmbər** *(sallallahu aleyhi və səlləm),* **imamların, bir çox səhabənin hətta, müxalif zalımların da çoxlu hekayələrini özündə əhatə edir."**[4]

Məclisi onun barəsində yazır: **"Şeyx Əhməd ibn Əbi Talib ət-Təbərsi bizim dəyərli, qədim və doğrucul mühəddis olan fəzilətli alimlərimizdəndir və "Kitabul-İhticəc"in sahibidir."**[5]

Şiə alimi Əbu Mənsur Əhməd bin Mənsur ət Təbərsi özünün "əl-İhticəc" kitabında Quranın təhrifi barəsində yazır:

من واذها تعالى، فعله من ليست القرآن في المنافقين من العظيمة الجرائر أصحابا سماء عن الكناية ان تعالى الله بين وقد الدين، من الدنياواعتاضوا عضين القرآن جعلوا الذين والمبدلين، المغيرين فعل ثمنا به لا يشتروا الله عند من هذا يقولون ثم بايديهم الكتاب يكتبون الذين " :بـ قوله المغيرين قصص "قليلا

"Lakin, münafiqlərdən olan böyük zülm sahiblərinin Qurandakı adları gizlətməsi isə Allahın fellərindən deyildir və bu Quranı təhrif edib onu dəyişənlərin fellərindəndir. O kəslər ki, Quranı ucuz bir şeyə çevirdilər və dinlərini sataraq qarşılığında dünyalarını aldılar. Allahu Təalə Kitabı dəyişdirənlərin qıssalarını belə izah edir: "onlar öz əlləri ilə kitab yazır, sonra

---

[1] "Ənvərun-numaniyyə", c.1,səh 97

[2] "əl-Ənvarun numaniyyə", c.2,səh 363

[3] "əl-Ənvarun numaniyyə",c.2,səh 315; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=70

[4] "Ravdətul cənnət", c.1,səh 72

[5] "Muqəddimətu Bihərul-Ənvar", səh 140

da: "Bu, Allah tərəfindəndir!"– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər."[1]

Təbərsi yazır: **"Quranda münafiqlərin adlarının kinayə yolu ilə gizlənmiş olmaları Allahın istəyi deyildir. Quranı parça-parça edən, dəyişdirən və təhrif edən, dünyanı dindən qoparanların istəyi və əməlidir."**[2]

Təbərsi "əl İhticac" kitabında yazır: **"Təqiyyənin genişliyinə baxmayaraq, ayələri təhrif edənlərin və artırma edənlərin adlarının açıqlanması caiz deyildir. Bu baradə sənin üçün eşitdiklərin yetərlidir. Çünki, təqiyyə şəriəti bundan daha artıq açıqlamağı qadağan etmişdir. Əks təqdirdə tədil, küfr əhli olanların dinimizə qarşı olan dəlilləri güclənmiş olacaqdır. Digər tərəfdən imamlar tərəfindən itaəti əmr edilmiş bu zahir elmin itməsi ehtimalı da vardır. Batil əhli həmişə haqq əhlindən daha çox olmuşdur."**[3]

Digər səhifədə yazır: **"Bu mənada Qurandan çıxarılan, təhrif edilən və dəyişdirilən hər şeyi açıqlayacaq olarsam mövzu çox uzanar. Həmçinin, təqiyyənin qadağan etdiyi övliyya fəzilətləri və düşmənlərin tədbirləri də ortaya çıxmış olar."**[4]

Muhəmməd Təqi Kəşani

آل مناقب منه ويحذف القرآن يجمع أن ، لعلي وعدواً هو أصدقائه من كان الذي ثابت بن زيد أمر عثمان ان جمعه الذي القرآن نفس هو عثمان بمصحف والمعروف الناس أيدى في حالياً الموجود والقرآن ، أعدائهم وذم البيت عثمان بأمر

"Osman özünün dostlarından və imam Əlinin düşmənlərindən olan Zeyd ibn Sabitə əmr etdi ki, Quranı toplasın, ondan Əhli beytin üstün cəhətlərini və onların düşmənlərini pisləyən yerləri çıxarsın. Hal-hazırda adamların əlində olan və Osman müshəfi kimi tanınmış Quran Osmanın əmrilə toplanmış həmin Qurandır."[5]

Nuri Təbərsi

Xomeyni onun haqqında yazır: **"Mövla, alim, zahid, abid, fəqih, mühəddis Mirzə Hüseyn ən Nuri Nurullah "əş Şərif"-də dəfn olunub."**[6]

Ağa Bəzrək Tehrani deyir: **"Şeyx Mirzə Hüseyn ibn Muhəmməd Təqi ən Nuri ət Təbərsi son əsrlərin hədis və rical imamlarının imamıdır. Dövrünün böyük İslam və şiənin öndə gələn elm adamlarındandır....Şeyx Nuri Təbərsi bu əsrdə nadir rastlanan sələfi saleh nümunələrindən biridir. Bənzərsiz bir dühaya sahibdir və Allah Təalanın ayələrindən biridir, ona böyük kəramətlər verilmişdir. Bunun sayəsində o ömrünü dinə və məzhəbə xidmətlə keçirmiş,**

[1] "əl-İhticəc", 1/370
[2] "İhticac", c.1 səh 249, Beyrut
[3] "Ihticac", c.1,səh 249 ,Beyrut
[4] "Ihticac", c.1 səh 254
[5] "Hidayət ət-talibin", səh 368, Tehran çapı
[6] "Ərbaunə hadisən",səh 24,"Darul təaruf" nəş.

şiənin öndər alimləri sırasına girmişdir. Əsərləndən bəzisi "Fəsl əl-xitab fi isbat təhrif kitab Rəbb əl-ərbab" (tərc."Aləmlərin Rəbbinin kitabının təhrif olunması haqqda yekun söz")[1]

Şiələr tərəfindən "son mühəddis" ünvanı verilmiş, kitabı şiə məzhəbinin 8 əsas kitablarından biri olan "Mustədrəkul Vəsail" müəllifi olan Nuri Təbərsi belə şəxsiyyətdir. Bu alim Quranın təhrif olunmasını sübut etmək üçün müstəqil bir kitab yazmışdır. Kitabın müqəddiməsində o yazır:

و الـ عدوان و الـ جور الهى فـ ضائـ ح و الـ قرآن تـ حريـ ف اثـ باتـ فـ ي عصـ لـ ته شريـ ف سـ فر و لـ ط يف كـ تاب هذ الارب اب رب كـ تاب تـ حريـ ف فـ ي الـ خطاب فـ صل سمـ يـ ته

"Günahkar qul Hüseyn ibn Muhəmməd Təqi ən Nuri ət Təbərsini Allah qapısında dayanan,onun kitabına tabe olanlardan etsin. Şübhəsiz, bu kitab əzəmətli və möhtərəm kitabdır ki, bunu mən <u>Quranın təhrif olunmasını və zəlalət və zülm əhlini ifşa və sübut etmək üçün yazdım.</u> Mən bu kitaba "Fəsl əl-xitab fi isbat təhrif kitab Rəbb əl-ərbab" "Aləmlərin Rəbbinin kitabının təhrif olunması haqqda yekun söz" adını verdim."[2]

Mirzə Hüseyn Təqi Nuri Təbərsi yazır: وان فـ يه والـ ذ قصان الـ تغـ يـ ير وقـ وع بـ عدم الـ قول وإلـ يه الـ دفـ تـ ين بـ ين فـ يما الـ ناس بـ أيـ دى الـ موجود هو - و سـ لم وآلـ ه عـ لـ يه الله صـ لى - الله رسـ ول عـ لى ذ زل ما جمـ يع الـ قدماء من يـ عرف ولـ م الـ تـ بـ يان فـ ي " الـ طو سي " الـ طائـ فة و شـ يخ الـ مرتـ ضي والـ سـ يد فـ ائـ دة فـ ي الـ صدوق ذهب " لـ هم موافـ ق

"Quranda dəyişiklik və naqisliyin olmaması və Allahın Elçisinə (*sallallahu aleyhi və səlləm)* **nazil olunan hər bir şeyin iki lövhə arasında mövcud olması görüşünü əs-Saduq, Seyyid Murtəza və Şeyxut-Taifə ət-Tusi "ət-Tibyən"də qəbul etmişlər və ilk dövr alimlərdən kimlərinsə onlara müvafiq olduğunu bilmirəm."**[3]

Nuri ət Təbərsi digər səhifədə Tusinin təhrifi qəbul etmədiyi "Tibyan" əsəri haqqında yazır: **"Şeyx Tusinin "Tibyan" əsəri araşdırıldığında bu əsərin tamamilə müxalifləri idarə etmək və onlarla yaxşı keçinmək niyyəti ilə yazıldığı məlum olacaqdır....Nuri Təbərsi davam edərək yazır: "Əli ibn Tavus "Sadus Səud" adlı əsərində bunları yazır: "Atam Əbu Cəfər ət Tusi "Tibyan" adlı kitabında yazdıqları ilə bizdə razıyıq. Onu bu fikirləri yazmağa təqiyyə qəsdi olmuşdur."**[4]

Daha sonra yazır: **"Nemətullah əl Cəzairi demişdir: "Bunu (yəni, Quranın təhrif olunmasını) sübut edən xəbərlərin sayı iki min hədisdən çoxdur. Mufid, tədqiqatçı Dəmmad, Əlləmə Məclisi və başqaları bu xəbərlərin çox geniş yayıldığını iddia edirlər."**[5]

---

[1] "Nuqabəul bəşər",c.2,səh 543,545,549,550

[2] "Müqəddimə"; https://anti-majos.org/viewtopic.php?f=9&t=186

[3] "Faslul-Xitab fi İsbat Təhrif Kitəb Rabbil-Ərbab", səh 34

[4] "Fəslul xitab", səh 38

[5] "Fəslul xitab", səh 227

Seyyid Adnan Bəhrani

Ağa Bəzrək ət Tehrani onun haqqında deyir: **"Seyyid Adnan ibn Seyyid Ələvi ibn Seyyid Əli ibn Seyyid Abdulcəbbar əl Musəvi əl Qaruni əl Bəhrani möhtərəm və dahi bir elm adamıdır. Dahi elm adamlarından və mükəmməl fəzilətləri olmuş insan idi. Dövrünün məşhur elm adamlarından elm almışdır. Geniş bir elm xəzinəsinə sahib idi. İnsanlar tərəfindən sevilən və etibar edilən bir şəxsiyyət idi. Cümə və camaat imamlığı vəzifəsini yerinə yetirmişdir."**[1]

Adnan Bəhrani yazır: حد تجاوزت وقد كثيرة (التحريف اخبار أي) تحصى لا التي الأخبار التواتر

"Bu baradə xəbərlər o qədər çoxdur ki, bütün bunlar mütəvatir dərəcəsinə çatır."[2]

Adnan Bəhrani digər səhifədə yazır: **"Xülasə olaraq deyirik ki, Əhli beyt yolu gələn, əgər mütəvatir olmasa belə çox sayda olan xəbərlərə görə əlimizdəki olan bu Quran Muhammədə** (*sallallahu aleyhi və səlləm*) **nazil olmuş Quranın tamamı deyildir. Əksinə, burda Allahın endirdiyinə müxalif olan və təhrif edilmiş, dəyişdirilmiş şeylər vardır və ordan çoxlu şeylər də çıxarılmışdır. Məsələn, Əli ibn Əbu Talibin adı bir çox yerdən çıxarılmışdır və Muhammədin ailəsi sözü çıxarılmışdır və eləcədə münafiqlərin adları və bundan başqa şeylər də çıxarılmışdır. Əli ibn İbrahimin təfsirində deyildiyi kimi bu Quran həm də Allahın və Onun Elçisinin razı olduğu şəkildə tərtib edilməmişdir."**[3]

Şeyx Mufid

Şiələr ona "şeyxlər şeyxi", "şiənin fəxri" və s. ləqəblər vermişlər. Əsl adı Muhəmməd ibn Muhəmməd ibn ən Numən, kunyəsi Əbu Abdullah olmuşdur. Şiə məzhəbinin mötəbər alimlərindən sayılır. Şeyx Saduqun tələbəsi olmuşdur. Bir çox kitabların müəllifidir, bunlardan ən məşhurları isə *"İrşad"*, *"Əvailul-Məqalət"*, *"əl İxtisas"* və *"Şərhu Əqaidis-Saduq"* kitablarıdır. Şeyx Mufid hicri 413-cü ildə dünyasını dəyişmişdir.

Yusuf əl Bəhrani Mufid barəsində demişdir: **"Şiə şeyxlərinin ən dəyərli olanlarından, onların ustadı və rəislərindəndir."**[4]

Mötəbər şiə alimi Abbas əl Qummi isə belə demişdir: **"(Mufid) ümmətin başçılarının başçısı, dəyərli şeyxlərin şeyxi və şiənin fəxridir."**[5]

Mufid yazır: صلى الله عليه وآله وسلم وآله عليه السلام: "أقول: المفيد قال الله تعالى: "إن الأخبار جاءت قد فيضة عن مستفيضة من الهدى أئمة من آل نبي الله تعالى: "والنقصان الحذف من فيه بعضهم أحدثه وما القرآن باختلاف وسلم وآله عليه السلام. ..... "وقول هذا أن عندي وفيقه أسأل الله وأميل إليه والتأويل دون الحقيقة على القرآن نفس من كلم نقصان ادعى من مقال من أشبه الصواب". "المقالات أوائل" (ص 93).

---

[1] "Nuqabəul bəşər"c.2,səh 1265

[2] "Məşariquş-şumusud-durriyyə", səh 126

[3] "Məşariquş-şumusud-durriyyə"səh,127; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=169

[4] "Lulutul-Bəhreyn", səh 356-357

[5] "əl-Kunə vəl-Əlqab", 3/164

"Deyirəm ki: "Şübhəsiz ki, Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* **Əhli beytindən olan hidayət imamlarından gələn yayğın xəbərlərə görə, Quranda ixtilaf vardır və bəziləri ordan nələri isə, ixtisar və naqis etmişlər"..... "Mənim nəzdimdə bu sözü deyən, Quranın özündə naqisliyin, təvilsiz (yozumsuz) olaraq, həqiqət (həqiqi mənada) olduğunu deyənin iddiasina bənzəyir ki, mən də buna meym edirəm. (Uca) Allahdan məni Öz hidayəti ilə doğru yola yönəltməsini istəyirəm."**[1]

Son mühəddis əllamə Nuri Təbərsi "Fəsl əl-xitab fi isbat təhrif kitab Rəbb əl-ərbab"kitabında[2] şeyx Mufidi təhrif fikrini dəstəkləyən alimlər arasında saymışdır.

Şeyx Mufid yazır: **"….Bu gün insanların əlində olan Qurandan fərqli olaraq Mehdi yanındakı Qurandan heç nə əksik deyildir....Ona görə də imam Cəfər buyurur: "Allaha and olsun ki, Quran nazil olduğu kimi oxunsa əvvəlkilər kimi bizim də adımızı orda görə bilərdiniz..... Bizim imamlar bizə iki müshəf arasında olanı ona bir şey artırıb, azaltmadan oxumağı əmr ediblər. Bu Qaim Mehdi gələnə qədər belə davam edəcək və o gəlincə insanlara Allahın nazil etdiyi və imam Əlinin topladığı Quranı oxuyacaq. Xəbərlərdə varid olanlara əsasən bizə müshəfdə olan Qurana hərf və sözlər artıraraq oxumaq qadağan edilmişdir….Adam müshəfə müxalif olanları oxuduğu zaman müxaliflər tərəfindən sıxıntıya məruz qala bilərlər. Bu səbəblə özünü təhlükəyə salmış olar. Ona görə də iki lövhə arasında olan müshəfin xilafını oxumaq qadağan olunmuşdur."**[3]

Həmçinin, o yazır: **"İmamiyyə bir çox ölünün Qiyamət günündən öncə təkrar dünyaya geri dönməsini məsələsində ittifaq etmişdir. Allah Təalanın sifətlərindən"bəda"nın onun haqqında caiz olması məsələsində də ittifaq etmişlər. Həmçinin, zəlalət rəhbərlərinin Quranın təlifi ilə əlaqəli bir çox məsələdə vəhyə və Rəsulullahın sünnətinə müxalif olmaları məsələsində ittifaq etmişlər."**[4]

Sultan Əli Şah ləqəbli Şeyx Hacı Sultan Muhəmməd əl Cənabəzi

O yazır: **"Bunu bil ki, pak imamlardan Kitabda artırma, azaltma, təhrif və dəyişdirmə olduğu baradə çoxlu sayda xəbərlər gəlmişdir. Beləki, bu xəbərlərdən bəzilərinin onlardan varid olmasında heç bir şübhə yoxdur. Artırma, azaltma və dəyişdirmənin Quranın ləfzində deyil, onun idrakında olması mövzusu hər kəs tərəfindən edilən məcburi bir təvildir. Bu kamil kimsələr tərəfindən avama edilən xitabda uyğun olmayan bir təvildir. Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **zamanında əshabın yanında Quranın cəm edilmiş olması, əzbərlənməsi, qiraət edilməsi və beləliklə təhrifdən uzaq olması iddialarına cavab olaraq deyirik: "Quranın cəm edilməsi fikri qəbul**

[1] Mufid, "Əvəilul-məqalat", səh 93
[2] səh 29
[3] Mufid,"Məsailus-Səraviyyə", səh 81-88
[4] Mufid, "Əvəilul-məqalat", səh 48-49,Beyrut

edilə bilməz. Çünki, Quran Peyğəmbərin vəfatın *(sallallahu aleyhi və səlləm)* **a qədər hissə-hissə nazil olurdu. Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **vəfatından sonra səhabənin və Əli** *(əleyhissəlam)* **cəm işini görmələri xəbərləri inkar olunmazdır. Səhabənin Quranı hifz və tədris etmələri ancaq əllərində olanlar ilə məhdudlaşır. Quranın qiraəti və hifz olunması isə cəm işi bitdikdən sonra vüsət almışdır. Quranın qorunmasına dair səbəblər olduğu kimi,münafiqlər üçün də təhrif olunmaq üçün səbəblər olmuşdur."**[1]

Əbu Əhməd ibn Xələf əl Usfur əl Bəhrani

O, "əl Ənvərul vadiyyə fil əqaidur radaviyyə" adlı əsər üzərində etdiyi təhqiqdə yazır: **"Quranın təhrifi məsələsində alimlərimiz fikir ayrılığına düşmüşlər.... Yekun olaraq biz deyirik: "Azaldılma baxımından Quranda təhrif olması inkar olunmayacaq bir hadisədir. Çünki,Quranda bir-birindən fərqli qiraətlərin olması nə vəhydən, nə də Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **qaynaqlanır. Mövcud olan təhrifi inkar olunmazdır.**

Rəvayyət olunduğuna görə imamlar ravinin "onlar Quran yeddi hərf üzərinə nazil oldu"sözünə: "Onlar yalan deyirlər. Quran Rəhman tərəfindən bir hərf üzərinə nazil olmuşdur." demişlər.....Bunun üzərində diqqətlə düşünmək lazımdır. Quranda dəyişiklik və təhrif olmadığını söyləyənlərin bu fikri təhqiq və həqiqət çərçivəsində deyildir. Yalnız,hüccəti insanlara tərk etmək və ümmət üzərindən şübhə və zənni qaldırmaq babındandır."[2]

Seyyid Abdullah Şubbar

Şeyx Abbas Qummi "Səfinətul Bihar" adlı kitabında yazır: **"Mövla Seyyid Abdullah Şubbari Kazımi üstün fəzilət sahibi, zəkalı alim, elm dəryası, mütəxəssis, diqqətli fəqih, rəbbani alim, zamanında "ikinci Məclisi" olaraq şöhrət qazanmış şəxsiyyətdir."**[3]

Abdullah Şubbar yazır: الأوّل إلى بالنسبة التنافي رفع ويمكن: على أُنزل الذي القرآن بأنّ الأخبار عليه دلّت كما كثير، شيء منه أُسقط وقد اليوم أيدينا في ممّا أكثر وسلّم وآله عليه الله صلّى النبي متواترة تكون أن كادت التي المتظافرة

"Mütəvatir dərəcəsinə yaxınlaşmış bir çox rəvayyətlərin dəlalət etdiyinə görə Qurandan bir çox hissələr çıxarılmışdır."[4]

---

[1] "Bəyanus səadə fu məqamətil badə", c.1,səh 19-20 "Muəssisətu aləmi"nəş.Beyrut,hic.1408 il

[2] "əl Ənvərul vadiyyə fil əqaidur radaviyyə", səh 28-29,ikinci fəsil "Nübuvvət"

[3] "Təsliyətul Fuad fi bəyanil məvti vəl məad", səh 7, "Muəssisətul aləmi" nəş.1995

[4] "Məsabihul Ənvar",c.2,səh 295; https://ic.pics.livejournal.com/daleel/61073388/7521/7521_original.jpg

Əbul Həsən əl Amili əl Fəttuni

Əbul Həsən əl Amili kitabının ikinci müqəddiməsində yazır: **"Bil ki, üzərində heç bir şübhə olmayan, mütəvatir və başqa yollarla gələn xəbərlərə görə haqq budur ki, bizim əlimizdə olan bu Qurana Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **sonra dəyişikliklərdən bir şey qarışmışdır. Quranı cəm edənlər, ordan bir çox sözləri və ayələri oradan çıxarmışlar. Dediklərimizdən aydın olur ki, Allahın nazil etdiyi Quran o Qurandır ki, onu Əli** *(əleyhissəlam)* **toplamışdır. Sonra Həsənə,** *(əleyhissəlam)* **sonra isə digər imamlara, nəhayət Qaim Mehdiyə ötürmüşlər. Bu gün Quran Mehdinin əlindədir."**[1]

Həmçinin, müəllif ikinci müqəddimənin dördüncü fəslini təhrifi qəbul etməyənlərə rəddiyə olaraq ayırmış və bu fəsilə **"Quranın dəyişdirilib, dəyişdirilmədiyi baradə alimlərin xüsusi görüşləri və dəyişdirilmə olduğunu qəbul etməyənlərin dəlillərinin tənqidi"** adını vermişdir.[2]

Əli ibn Hüseyn ibn Musa Şərif əl Murtəza

O, kitabında **"Quranda təhrif olunanlar"** başlığı altında yazır:
الـ ناس أخرجت أئ مة خ ير ك ن تم " : ف قولـه الله ك تاب من حرف ما وأما .القرآن من حرف ما
أمة خ ير إلـ ى ف حرف ت " الـ م نكر عن وتـ نهون بـ الـ معروف تـ أمرون

"Allahın Kitabında təhrif olunan ayələrə gəlincə, "Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli imamlarsınız." (xeyra əimmətin) ayəsi "ən xeyirli ümmətsiniz" (xeyra ummətin) ayəsi ilə əvəz edilmişdir."[3]

Yusuf əl-Bəhrani

Böyük şiə muhəddisidir. "Luluətul Bəhreyn" və "əd Durarun Nəcəfiyyə" adlı kitabların müəllifidir, hicri 1186-cı ildə ölmüşdür. Muhsin əl Əmin onun haqqında yazır: **"Şeyx Yusif ibn Əhməd əl Bəhrani son dövr elm adamlarımızdandır. Üstün zəka, mötədil xarakterili, fiqh və hədisdə parlaq bir şəxsiyyətdir. Rical müəllifi Əbu Əli onun haqqında deyir: "Alim, fazil, elm dəryası, mahir, mühəddis, abid, sadiq, dindar bir şəxsiyyətdir. Dərin elmə sahib müasir elm adamlarımızdandır. Bir çox faydalı əsər qələmə almışdır."**[4]

O, öz kitabında demişdir: **"Seçimimiz olan rəy və bu rəyin səhihliyinə dəlalət edən sübutlar açıq aşkardır. Çox sayda və geniş yayılmış bu xəbərlərə şübhə edilərsə, şəriətin bütün xəbərlərinə şübhə etmək və dil uzatmaq mümkün hala gələ bilər. Çünki, ağıllar eynidir. Həmçinin, sənədlər, ravilər, şeyxlər və nəql edənlər də eynidir. Həyatıma and olsun ki, müshəfdə təhrif və**

[1] "Mirətul ənvər və mişkətul əsrar",səh 36; 59-cu fəsil
[2] "Mirətul ənvər və mişkətul əsrar",səh 87; https://anti-majos.org/viewtopic.php?f=9&t=178
[3] "Ayət ən nəsh əl mənsuh",səh 94; https://anti-majos.org/viewtopic.php?f=9&t=166
[4] "Əyanuş Şia"c.10,səh 317

dəyişdirmənin olmadığını söyləmək zülm rəhbərlərinə hüsnü zənn etmək və digər əmanətlərə xəyanətlərinə bəraət qazandırmaq deməkdir."[1]

Həmin kitabda digər səhifədə yazır: **"Bu iki xəbərdən çıxan nəticəyə görə indi mövcud olan Quranı oxuma əmri, sadəcə bu Quranla kifayətlənmə, Qurandan çıxarıldığı imamlar tərəfindən bildirilən hissələrin oxunulmasının caiz olmaması təqiyyə və bəzi məsləhətlərə görədir. Mehdi zühur edib, qiyam etdikdən sonra, oxunulması caiz olmayan hissələr ilə birgə bütün Quranı gətirəcək və bu şəkildə oxunulmasını əmr edəcəkdir."**[2]

Əllamə Hacı Mirzə Həbibullah əl Haşimi əl Xoyi

Əli Əsqər Hüseyni əl Xoyi onun haqqında yazır: **"Seyyid, əhli beyt fəqihi, məntiq və nəqli elmləri özündə cəm edən, mühəqqiqlərin fəxri, müctəhidlərin timsalı Hacı Həbibullah əl Haşimi əl Musəvi əl Xoyidir."**[3]

"Minhəcul bərəa fi şərhi Nəhcil Bəlağa" kitabında yazır: **"İmam Əli** *(əleyhissəlam)* **təqiyyə səbəbi ilə Qiyamət günü təhrifçilər və dəyişdirənlər əleyhinə bir hüccət olsun deyə öz xəlifəliyi zamanı əsl Quranı izhar etməmişdi."**[4]

Həmçinin, eyni yerdə yazır: **"İmamlar insanların ixtilafa və küfrə dönmələrindən ehtiyyat edərək səhih olan Quranı ortaya çıxarmamışlardı."**

O, yazır: **"Bəzi yerlərdə ki, bəlağat və fəsahat möcüzəlik həddinə çıxarkən, bəzi yerlərdə isə çox səviyyəsizdir."**[5]

Başqa yerdə yazır: هو ما مع بـ أيـ ديـ نا الـ موجود الـ كـ تاب هذا إلـ ى بالرّجوع أمرونـ ا إنّما السّلام عـ لـ يهم الأئـ مة إنّ شـ يعـ تهم و أنـ فـ سهم عـ لـى الـ خوف و الـ تـ قـ ية لأجـ ل النّقصان و التّحريف من عـ لـ يه

"İmamlar əlimizdə olan təhrif və nöqsana uğramış Qurana təqiyyə səbəbi ilə müraciət etməyi əmr etmişlər."[6]

"Qurandan hərf və ayələrin çıxarılması səbəbi ilə təhrif olunduğuna dair heç bir fikir ayrılığı yoxdur."[7]

Saleh əl Mazandarani

Əli Əkbər əl Qifari Saleh Mazandarani haqqında yazır: **"Mövla Muhəmməd Saleh əs Səravi əl Məzandarani öndə gələn elm adamlarından və hədis tədqiqatçılarından və tənqidçilərindəndir. Geniş bir irfana sahib, məntiqi və nəqli elmləri özündə əhatə etmişdir. Üsul və furuda mahir**

---

[1] "əd Durarun Nəcəfiyyə", Muəssisətu ahləl beyt" nəşr.səh 298
[2] "əd Durarun Nəcəfiyyə", Muəssisətu ahləl beyt" nəşr.səh 296
[3] "Muqaddimətu minhəcul bərəa fi şərhi Nəhcul Bəlağa",c.1,səh 7,Beyrut
[4] "Minhəcul Nəhcil Bəlağa",c.2,səh 214-220 ;https://www.anti-majos.org/viewtopic.php?f=9&t=180
[5] səh 211
[6] https://ic.pics.livejournal.com/daleel/61073388/12301/12301_original.jpg
[7] https://ic.pics.livejournal.com/daleel/61073388/12578/12578_original.jpg

kimsələrdəndir. Öz zamanında ən zahid, ən abid kimsələrdən idi. Zamanında onun ilə eyni səviyyədə olan kimsələr olduqca az idi. "Kafi" kitabını çox gözəl tərzdə şərh etmiş, bir çox rəvayyətləri təfsir etmişdir. "Kafi" kitabına yazılmış şərhlər içərisində ən gözəli və ən faydalısıdır."[1]

Mazandarani Kuleyninin "Əli barasində ayə gətirin" hədisinin şərhində Quranın açq-aşkar təhrif olunmasını təsdiq etmişdir. "Cabirdən nəql olunan hədisdə deyilir: "Cəbrayıl Quranda bu ayəni gətirmişdi: "Əgər Əli baradə nazil etdiyimizə şübhəniz varsa ona bərabər bir surə gətirin."

Şərhində Mazandarani deyir: **"Əlinin adı Quranda var idi. Münafiqlər onun adını Qurandan sildilər və pozdular."**[2]

Məzandarani yazır: **"Qurandan bəzi ayələrin çıxarılması və təhrif olunması məsələsi bir çox yollalarla məna etibarı ilə mutəvatir olaraq sabitdir. Hədis kitablarını araşdıran kəs buna şahid olacaqdır."**[3]

Mazandarani başqa yerdə yazır: **"Quran bu gün 6500-ə yaxın ayədən ibarətdir. Bundan artıq olan ayələr isə təhrif olunub, kitabdan çıxarılmışdır."**[4]

Muhəmməd ibn Həsən əl Hurr Amili

əl Ərdəbili onun haqqında deyir: **"Muhəmməd ibn Hurr Amili Məşhəd sakinlərindəndir. İmam, əllamə, mühəqqiq, məqamı yüksək alim, fazil, mükəmməl elm dəryası olan şəxsiyyətdir. Fəzilətlərini saymaqla qurtarmaq olmaz. Bir çox qiymətli əsərləri vardır.Şah əsər olan "Vəsailuş şia"ona aiddir."**[5]

Hurr Amili yazır: **"Bəzi ayələrin təvili ilə birlikdə nazil olduğu və hətta, bəzi ayələrin vəya bəzi surələrin yazılmayıb, çıxarıldığı barasində olan rəvayyətlər mutəvatir olaraq gəlmişdir."**[6]

O yazır: **"Əlimizdəki Quranın təhrif edilməsini inkar edənlər əsasən bu ayələrə söykənirlər: "Nə önündən, nə də arxasından batil ona girişə bilməz.", "Şübhəsiz ki, Biz zikri nazil etdik və əlbəttə Biz də onu qoruyacağıq." Bu ayələrin zahirindən məqsəd heçdə əlimizdə olan Quran deyildir. Bu ayələrdən məqsəd, orijinal (əsil) Qurandır. Hansıki, həmin Quran, təhrifdən uzaq və Allahın nazil etdiyi kimi olan həqiqi Qurandır və onu əmirəlmöminin cəm etmiş və özündən sonrakı varis imamlara ötürmüşdür!"**[7]

---

[1] "Muqəddimətu şərhi Usulul kafi", səh 5,Beyrut
[2] "Şərhu Usulil Kafi",26-cı hədis: səh 66-67
[3] "Şərhu Usulil Kafi", c.11,səh 87-88; https://www.anti-majos.org/viewtopic.php?f=9&t=165
[4] "Şərhu Usulil Kafi",11/76
[5] "Camiur Ruvat",c.2,səh 90
[6] "İsbatul hudat bin nususu vəl mucizat", c.2,səh 163, "əl İlmiyyə" nəş.Qum
[7] "Muqəddimətu Təfsirul-Burhan Miratil Ənvar və Mişkatil Əsrar", səh 87,Beyrut

Mirzə Həsən əl-Hairi

Şiələrin "Ayətullahul Uzma" adlandırdıqları bu böyük alim də Quranın təhrif olunduğuna etiqad etmişdir. Ayətullah Mirzə Həsən əl-Hairiyə bir sual ünvanlanmışdı:

Sual: **- Bilirik ki, Qurani-Kərim Peyğəmbərə** *(sallallahu aleyhi və səlləm)* **munfərit ayələr şəklində nazil olmuşdur. Ayələr surələrə necə yerləşdirilmişdir? İlk dəfə bunu kim etmişdir? Bu gün oxuduğumuz Quranda Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **nazil olan bütün ayələr varmı?**

Cavab: **- Bəli, Quran Allah tərəfindən Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **iyirmi üç il ərzində, yəni, peyğəmbərliyin əvvəlindən, vəfatına qədər endirilmişdir. Quranı ilk dəfə cəm edən və kitab halına salan Əli ibn Əbu Talib olmuşdur. Daha sonra isə bu Quran onun övladlarına, imamdan imama keçmişdir. Gözlənilən imam Mehdi zühur edib, bu Quranı üzə çıxaracaqdır. Sonra isə mushəfi Osman öz xəlifəliyi dönəmində cəm etmişdir. Səhabələrin hafizəsindən və ya yazdıqları vəsaitlərdən bir araya toplanmış Quran indi əlimizdə olan Qurandır."**[1]

Ayətullah Əli əl Milaninin fətvası

ـ وغ يرهم والمجـ لسي الـ جزائـ ري الله ذ عمة والـ سـ يد الـ عاملي الـ حـ سن وأبـ و الـ مـ فـ يد الـ شـ يخ قـ ول هو صـ حـ يح هل ؟ الـ قرآن بـ تحريـ ف ـ الـ رفـ يعة الـ عـ لم ية والـ درجة الـ فـ ضل من لـ هم ما مع

قولاً وكـ ونـ ه ، الـ كريـ م الـ قرآن بـ ذ قـ صان يـ قولـ ون عـ ندنـ ا المحدّثين من جداً قـ لـ يل عددٍ وجود ذ كر لا ذ حن : 4 ج فـ يهم الـ طـ عن لـ نا يجوّز و لا ، بـ ـه لـ قائـ لـ ين الـ عـ لم ية بـ الـ درجة يـ قدح لا مردوداً

Sual: **"Doğrudur ki, şeyx Mufid, Əbulhəsən əl Amili, Nemətullah Cəzairi, Məclisi və bir sıra nüfuzlu və fəzilətli alimlərimiz Quranın təhrifinə inanmışlar?"**

Cavab: **"Biz inkar etmirik ki, bəzi azsaylı mühəddislərimiz Quranda nöqsanlar olduğuna inanmışlar. Lakin, bu rəy rədd edilmişdir və onlardan üz çevirmək icazəli deyil."**[2]

Ayətullah Cavad Mirzə Təbrizinin fətvası

Sual: **"....Hansı əmanət daha ağırdır, Quran yoxsa Əhli beyt?"**

Cavab: عـ لـ يه) الـ مؤمـ نين أمـ ير لـ لإمام الـ مذكورة الـ خطب ذ سـ بة صحة عـ ندنـ ا يـ ثـ بت لـ م تـ عالـ ى بـ سمه بـ عض و صدور (الـ سلام عـ لـ يهم) الـ بـ يت أهل عـ ند الـ محـ فوظ الـ كريـ م الـ قرآن واقـ ع هو الأكـ بر الـ ثـ قل من والـ مراد ،(الـ سلام الـ قرآن من الـ مراد ولـ يس الأكـ بر، الـ ثـ قل حـ فظ سـ بـ يل فـ ي بـ أنـ فسهم ضحوا (الـ سلام عـ لـ يهم) الأئـ مة فـ إن الـ مؤمـ نين، الـ عالـ م والله أهله، عـ ند الـ محـ فوظ الـ قرآن عن حاكـ يات الـ نـ سخ فـ هذه الـ ناس بـ أيـ دي الـ تـ ي الـ نـ سخ.

".... Bizim üçün böyük, qiymətli əmanət əhli beytin yanında və bəzi möminlərin qəlbində hifz olunan Qurandır. Axı, imamlar öz canlarını bu ağır əmanətin qorunması yolunda veriblər. Biz Quran dedikdə insanların əlində

[1] "əd-Din Beynəs-Sail val Mucib", səh 89

[2] https://www.anti-majos.org/viewtopic.php?f=9&t=159

olan müshəfləri nəzərdə tutmuruq. Çünki, bu müshəflər yalnız əhli beytin yanında hifz olunur,insanların əlində isə Quran haqqında olan hekayələrdir."[1]

Həmçinin, qeyd olunanlardan əlavə aşağıdakı bəzi məşhur şiə alimləri də Quranda təhrif və nöqsan olduğunu kitablarında təsdiq etmişlər:

1. Muhəmməd ibn Sadiq əs Sadr əl Musəvi[2]
2. Kamil Suleyman[3]
3. Sultan Muhəmməd əl Xorasani[4]
4. Şeyx Yəhya əl Kərki[5]
5. Abdullah Muhəmməd əz Zahir[6]
6. Seyyid Nurullah ət Tustəri[7]
7. Kazım Həmdul ən Nəcəfi[8]
8. Mənzur Hüseyn[9]
9. Seyyid Muhsin əl Həkim[10]
10. Seyyid Mahmud əş Şəhrudi[11]
11. Seyyid Muhəmməd Kazım[12]
12. Əllamə Seyyid Əli ən Nəqvi[13]
13. Seyyid Hüseyn əl Burucərdi[14]
14. Seyyid Əbul Həsən əl İsfəhani[15]
15. Muhəmməd Baqir sahibi Qiblə[16]
16. Seyyid Zuhur Hüseyn Sahib[17]
17. Seyyid Muhəmməd sahibi Qiblə[18]
18. Seyyid Ruhullah əl Xomeyni[19]
19. Əbu Talib ət Təbrizi[20]
20. Molla İsa Ərdəbili[21]
21. Seyyid Şihabuddin əl Məraşi[1]

---

[1] https://anti-majos.org/viewtopic.php?f=9&t=174&p=182#p182
[2] "Tarihu mə badəz zuhur", səh 373,637,638
[3] "Yəumul Xaləs fi Zillil Qaimil Mehdi", səh 371,372,373; Beyrut çapında, Darul Kitəbil Lubnəni
[4] "Kifəyətul-Usul' kitabı", səh 284-285
[5] "əl-İmamət" kitabı; Nuri ət-Təbərsi, "Fəslul-Xitab fi İsbəti Təhrifi Kitəbi Rabbil- Ərbab" kitabı,
[6] "İqsirud-Də'avat", səh 62
[7] "İhqaqul-Həqq", 1/337 (Qum çapında, Mənşurat Məktəbəti Ayətilləhul Məraşi)
[8] "Fəvaidud-Dua", səh. 301
[9] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[10] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində); "Tuhfətul Avam Mutəbər və Mukəmməl", səh 303
[11] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[12] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[13] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[14] "Mikyəyul Məkərim", 1/58-62; "Tuhfətul Avam Mutəbər və Mukəmməl", səh 303
[15] "Tuhfətul Avam Mutəbər və Mukəmməl", səh 303
[16] Eyni mənbədə
[17] Eyni mənbədə
[18] Eyni mənbədə
[19] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində)
[20] "Mənhuval Məhdi",səh 520
[21] "Şərhu Məşhun bil Fəvaid" kitabı; "İhqaqul-Həqq", 1/337; "Hədiqatuş-Şi'a", səh 118-119

22. Ağa Bəzrək ət Təhrani[2]
23. Molla Əli Əsğər əl Qəzvini[3]
24. Əhməd əl Əhsai[4]
25. Əbul Qasim əl Kufi[5]
26. Murtəza əl Ənsari[6]
27. Əli əl Qurani[7]
28. Muhəmməd Hüseyn əl Ələmi[8]
29. Əhməd əl Cəzairi[9]

Mövzunun əhəmiyyətini nəzərə alaraq və bəzi məqamlara aydınlıq gətirmək üçün aşağıda bəzi kitablardan sitatlar olduğu kimi təqdim olunur.

Doktor Zahirəddin əl Mədəninin **"Bir yəhudi fitnəsinin nəticələri"** adlı kitabından bir fəsil:

Təhrifi zahirən qəbul etməyən ilk dörd alim haqqında bəhs

Şiələrin əvvəlki səhih hesab etdikləri, onlarda dəyişməz olaraq qəbul olunan hədislərdən və rəvayyətlərdən, onların təfsirçilərinin, görkəmli adamlarının və imamlarının sözlərindən artıq bəlli oldu ki, müsəlmanların əlində olan bu Quran artırma və əskiltmə cəhətdən salamat deyil və qorunan düzgün Quran ancaq və ancaq onların Mehdisində olan Qurandır. Birdən-birə hicrətin dördüncü əsrində şeyx Səduq adı ilə tanınan Muhəmməd ibn Əli ibn Babaveyh Qummi adlı birisi doğulur və görür ki, şiələr Quranın (Allah tərəfindən) qorunub saxlanmadığını dediklərinə görə insanlar onlara nifrət edir, onlardan uzaq dolanır və onları söyüb biabır edirlər. Çünki,onların sözü doğrudursa, İslama necə əməl etmək, adamları ona necə dəvət etmək olar? Həmçinin, şiə məzhəbinə necə bağlanıb qalmaq olar? Axı onların dediyinə görə Rəsulullah *(sallallahu aleyhi və səlləm)* iki qiymətli şeyin: Quranın və əhli beytin hörmətini saxlamağı əmr etmişdi. Bir halda ki, bu iki şeydən böyüyü — Quran sabit deyil, kiçiyi necə sabit ola bilər və ona necə ehtiram göstərmək olar?

O bunu görəndə belə deməyə məcbur oldu: **"Biz inanırıq ki, Allah-Təalanın öz peyğəmbəri Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **nazil etdiyi Quran kitab kimi toplanıb adamların əlində olan Qurandır, bundan artıq heç nə deyil". O, sözünü belə tamamlayır: "Kim Quranın bundan çox olduğu fikrini bizə aid edir, o yalançıdır."**[10]

---

[1] "İhqaqul-Həqq", 1/337
[2] "əz-Zəria ilə Təsanifiş-Şi'a" kitabı, 10/9 (Nəcəf çapında)
[3] "Zuhərul Aləmin fi Şərhi Du'a is-Sanəmeyn" kitabı, 8/192 (Fars dilində); "Əqaidiş-Şi'a" kitabı, səh 27
[4] "Şərhuz-Ziyəratil Cəmiatil-Kəbir", 3/189
[5] "əl-İstiğazətu Fil bidəas-Saləsə", səh 25
[6] "Fəraidul Usul", 1/66
[7] "Əsrur-Zuhur", səh 88
[8] "Dairatul Məarif", 14/313-315
[9] "Qaləidud-Durar", 1/21
[10] İbn Babveyh Qumminin "əl-İtiqadat" əsəri, Quranın həcmi haqqında fikir fəsli, Iran çapı, 1224

Haşiyə: Qeyd etmək lazımdır ki, həqiqətən Quranda azaldılma deyil, artırılma olmaması fikrində şiələr həmrəydirlər. Onun ardınca bu fikri hicri 436-cı ildə vəfat etmiş "Ələm əl-hüda" (Düzgün yolun bayrağı) ləqəbli Seyyid Mürtəza dedi. Şiə təfsirçisi Əbu Əli Təbərsi də bunu ondan nəql edib deyir: "**Qurana nəyinsə artırılmasının batil bir fikir olduğunda hamı yekdildir, ondan nəyinsə çatışmadığı məsələsində isə bizim əshabələrimizdən bir qismi və bir para aşağı səviyyəli avam adamlar rəvayyət etmişlər ki, Quranda bir sıra dəyişikliklər və çatışmazlıqlar var…"**[1]

Sonra onların ikisinin ardınca 460-cı ildə vəfat etmiş Əbu Cəfər Təbərsi özünün "ət-Tibyan" təfsirində demişdir: "**Qurana əlavələr olunması və ondan nəyinsə çıxarılması haqqında söz-söhbət Qurana layiq olan sözlər deyil." O, sözünü belə bitirir: "Peyğəmbərdən** *(sallallahu aleyhi və səlləm)* **heç kəsin rədd edə bilmədiyi belə bir rəvayyət söylənir: "Mən özümdən sonra sizə iki qiymətli şey qoyub gedirəm: "Siz nə qədər ki, onların hər ikisinin ardınca gedəcəksiniz, heç vaxt yolunuzu azmayacaqsınız. Bunlar Allahın Kitabı və mənim nəslim əhli beytimdir..." Bu ona dəlalət edir ki, o (Quran) hər bir əsrdə mövcuddur. Çünki, peyğəmbər** *(sallallahu aleyhi və səlləm)* **bizə əməl olunması mümkün olmayan şeyə əməl etməyi əmr etməzdi."**[2]

Onlardan dördüncüsü hicri 548-ci ildə vəfat etmiş, artıq "Məcmə əl-Bəyan" təfsirində sözü getmiş Əbu Əli Təbərsidir...

Dördüncü əsrdən altıncı əsrədək Quranda təhriflər olmadığını deyən bu şiə alimlərinin sayı cəmi dörddür, beşincisinə rast gəlmirik. Şiə alimlərindən heç biri bu üç əsrdə bu dörd nəfərin dediklərini deyən beşinci nəfərin olduğunu sübut edə bilməz. Üç əvvəlki əsrdə də, yuxarıda qeyd etdiyimiz kimi, onlara müvafiq bir söz deyən olmamışdır.

Mirzə Hüseyn Təqi Nuri Təbərsi deyir:

"**İkinci, Quranda dəyişiklik və çatışmazlığın olmaması, Rəsulullaha** *(sallallahu aleyhi və səlləm)* **nazil olanların hamısının adamların əlində kitab şəklində olmasıdır. Öz əqidələrində Səduq, Seyyid Mürtəza, bu tayfanın şeyxi Tusi də "ət-Tibyan"da ona əsaslanmışlar. Keçmiş alimlərdən bir nəfər də onlarla razı olmamışdır." O, sözünü belə tamamlayır: "Onlar həm də onun adaşına,yəni Əbu Əli Təbərsiyə əsaslanmışlar. Bu məsələdə bu dörd şeyxdən başqa heç kəs əks fikirdə olduğunu açıq-aydın bildirməmişdir."**[3]

Bu dörd nəfər də Quranın təhrif olunduğunu inkar etməmiş, yuxarıda qeyd etdiyimiz kimi, yalnız söyənlərin söyüşündən qorunmaq üçün, etiraz edənlərin iradlarından can qurtarmaq üçün özlərini ona etiqad edən kimi göstərmişlər. Bu da onların öz dinləri üçün bünövrəyə çevirdikləri təqiyyə və ikiüzlülük üzərində qurulmuşdur. Belə olmasaydı, onlar inkar etdikləri halda şiə məzhəbinin uçub-dağılacağı, toz kimi havaya sovrulacağı bir şeyi inkar etməzdilər.

Adları keçən bu alimlər Quranın təhrif olunmasını təqiyyə məqsədi ilə inkar etmişlər.Çünki:

1) Təhrifi iddia edənlərin fikirlərini rədd edən əsərlər yazmamışlar.

---

[1] "Məcmə əl-Bəyan" təfsiri, səh 5, c.1, İran çapı, hicri 1284

[2] "ət-Tibyan", səh 3,c.1, Nəcəf çapı və "Təfsir əs-Safi", səh 15

[3] "Fəsl əl-xitab",səh 34

2) Təhrif görüşünə sahib olan alimləri "Ayətullah", "Əllamə" kimi gözəl sifətlərlə vəsf etmiş,onları mərci hesab etmişlər.

3) Təhrif iddiasını rədd edərkən imamlardan gələn hədislərə istinad etməmişlər.

4) Qələmə aldıqları əsərlərdə təhrifə açıq aşkar dəlil olacaq rəvayyətlərə yer vermişlər.

"Quranın təhrif olunduğu sözünü bizə aid edən adam yalançıdır" deyən ibn Babaveyh Qummi özünün "əl-Xisal" kitabında belə bir hədis rəvayyət edir:

"Bizə Cəssani (bənna) kimi tanınmış Muhəmməd ibn Ömər Hafiz Bağdadi bir hədis danışıb dedi: Bizə Abdullah ibn Bişr bir hədis danışıb dedi: Bizə Həsən ibn Zəbərqan Muradi bir hədis danışıb dedi: Bizə Əbu Bəkr ibn Əyyaş Əcləh Əbu Zubeyrdən Cabirin belə dediyi haqqında bir hədis danışdı: "Mən Rəsulullahın *(sallallahu aleyhi və səlləm)* **belə dediyini eşitmişəm: "Qiyamət günü gələndə üç şey şikayət edəcək: "Müshəf, məscid və mənim nəslim. Müshəf deyəcək ki, ya Rəbb, məni yandırdılar və parça-parça etdilər..."**[1]

Başqa yerdə də bunları yazır: **"Əzhab surəsi Qureyşli ərəb qadınların əməllərini ifşa etmişdi. Bəqara surəsindən daha uzun idi. Lakin,onlar bəzi yerlərini çıxarıb, təhrif etdilər."**[2]

Yenə başqa yerdə "Əli ibn Həsən ibn Fəddalın atası imam Rzadan rəvayyət edir: **"Yoxsa onlar ancaq onu gözləyirlər ki, Allah bulud kölgəsində mələklərlə birlikdə gəlsin və iş bitmiş olsun? Bütün işlər Allaha qaytarılacaqdır." (Bəqara 210) ayəsi haqqında soruşdum. İmam belə dedi: "Bu ayə "Onlar Allahın bulud kölgəsində mələkləri gətirməsi" şəklində nazil olmuşdu."**[3]

Şiə mühəddisi Həbibullah əl Haşimi bu rəvayyəti şərh edərkən yazır: **"Şeyx Səduqun belə bir rəvayyəti nəql edib,sonra təhrifi rədd etməsi təəcüblü bir haldır."**[4]

Şeyx Tusi "Rical Kəşşi" kitabını tədqiq etmiş, amma Quranın təhrifinə dair rəvayyətlərlə əlaqəli nə şərh,nə də izah gətirməmişdir.Bu rəvayyətlər qarşısında səssiz qalması onları etiraz etmədiyini göstərməkdədir.Bu rəvayyətlərdən bəziləri bunlardır:

Huseyn ibn Təlha-Əbu Fəddaldan, o Yunus ibn Yəqubdan, o Bureyd əl Aclidən rəvayyət olunur ki, Əbu Abdullah belə buyurdu: **"Allah Təala Quranda yeddi adamın adını bildirdi. Lakin, Qureyş altısını silərək ancaq Əbu Ləhəbin adını saxladı."**[5]

"İmam Musa Kazım həbsdə olan Əli ibn Süveydə yazmışdır: **"Öz şiələrindən olmayanların dinini qəbul etmə və sevmə. Onlar Allaha, Onun Rəsuluna və onların əmanətlərinə xəyanət etmişlər" — dedikdə nəyi nəzərdə tuturam? Allahın Kitabı onlara əmanət qoyulmuşdur, onlar isə onu təhrif və təbdil etmişlər."**[6]

---

[1] İbn Babaveyh Qummi, "əl-Xisal",səh 83, Iran çapı, hicri 1302

[2] "Səvabul əməl", səh 139

[3] Şeyx Səduq, "Tövhid"kitabı, c.1,səh 163;20-ci bab,Beyrut

[4] "Minhəcul bərəa fi şərhi Nəhcil Bəlağa", c.2,səh 169 "İhyaus Turas" nəş.Beyrut

[5] "Ricalu Kəşşi", səh 247

[6] "Ricalu Kəşşi", səh 247 "əl-Kafi", "Kitab ər-rövzə" fəsli, c.8 səh 125, Tehran çapı və səh 61, Hindistan çapı

Nuri ət Təbərsi yazır: **"Şeyx Tusinin "Tibyan" əsəri araşdırıldığında bu əsərin tamamilə müxalifləri idarə etmək və onlarla yaxşı keçinmək niyyəti ilə (təqiyyə) yazıldığı məlum olacaqdır....Nuri Təbərsi davam edərək yazır: "Əli ibn Tavus "Sadus Səud" adlı əsərində bunları yazır: "Atam Əbu Cəfər ət Tusi "Tibyan" adlı kitabında yazdıqları ilə bizdə razıyıq. Onu bu fikirləri yazmağa təqiyyə qəsdi olmuşdur."**[1]

Sonda Zubeyr qardaşın yazdığı risalədən bəzi məqamları əlavə olaraq burda olduğu kimi qeyd edirik:

Əhli sünnənin bu batil etiqadda olanlara münasibəti

Öncə qeyd edək ki, Əhli sünnənin Qurani Kərim haqqında olan etiqadı budur ki, Quran- Cəbrail *(əleyhisələm)* vasitəsi ilə Muhəmmədə *(sallallahu aleyhi və səlləm)* vəhy edilmiş, Uca Allahın Kəlamıdır! Əhli sünnə Quranın haqq olduğuna, bir hidayət, bir nur, bir bəyan və bir şəfa olduğuna iman edir. Allah Təala səhabələr və onlardan sonra gələn şərəfli nəsillər vasitəsi ilə bu Quranı hifz etmişdir, eləcə də onu təhrifdən qoruyacaqdır!

İmam Şətibi *(rahiməhullah)* buyurur: "**Uca Allah Qurani-Kərim üçün o qədər hafiz yaratmışdır ki, əgər ona bir hərf belə artırılsa, bunu nəinki böyük qarilər, hətta minlərlə hafiz olan kiçik uşaqlar da aşkar edər."**[2]

İbn Həzm *(rahiməhullah)* buyurur: "**Bilin ki, bu gün kimsə (şair) Nəbiğənin və ya (şair) Zuheyrin şeirlərinə bircə kəlmə artırmağa, yaxud ondan bircə kəlmə çıxarmağa cəhd edərsə, bunu bacarmayacaqdır! Çünki, o dərhal rüsvay olacaq. Artıq təsdiq olunmuş nüsxələr, onun dediyinin əksini göstərəcək! Belə olduğu təqdirdə, Əndəlusun o tayından, Bərbər ölkəsindən, Sudandan -Sində, Kəbilə, Xorasana, Türk- Slavyan ölkələrinə və Hindistana qədər, eləcə də bunların arasında yerləşən ərazilərdə yayılmış mushəflərdə sabit olan Qurani-Kərimi necə dəyişmək olar?!"**[3]

əl-Amədi *(rahiməhullah)* buyurur: "**Bu kitab (Quran) haqqında həqiqət budur ki, o bizə mushəflərin vərəqlərində nəsillərdən nəsillərə ardıcıl və tam olaraq gəlib çatmışdır."**[4]

İmam Suyuti *(rahiməhullah)* buyurur: "**Biz onu qoruyacağıq!' – yəni, dəyişməkdən, təhrifdən, artırılma və azaltmadan Quranı qoruyacağıq!"**[5]

Qazi Əbubəkr *(rahiməhullah)* buyurur: "**Yəqinliklə deyə bilərik ki, Allahın nazil etdiyi və qəbul edilməsini əmr etdiyi, nazil edəndən sonra nə özünü, nə də oxunuş qaydasını dəyişdirmədiyi Quran bütövlükdə Osmanın** *(radiyallahu*

[1] "Fəsl əl-xitab",səh 38
[2] "əl-Muvafəfəq"
[3] "əl-Fəslu fil Miləli van-Nihəl", 2/80
[4] "əl-Əhkəm", 1/227
[5] "Təfsil əl-Cələleyn", Hicr-9-un təfsiri.

anhu) **mushəfində əhatə olunmuş Qurandır. Ondan heçnə əskilməmiş və Ona heçnə artırılmamışdır."**[1]

Quranın təhrif olunduğuna etiqad etmək və belə bir əqidəyə sahib olmaq Əhli sünnə vəl-cəməaya görə küfrdür. Çünki, Uca Allah Quranı qoruyacağına zəmanət vermişdir. Bu hökm isə qəti və mütləqdir. Bu səbəbdən də, Quranın dəyişdirilməsi mümkün deyildir.

Uca Allah buyurur: "**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."**[2]

"Rəbbinin Kitabından sənə vəhy olunanları oxu. Onun kəlmələrini heç kəs dəyişdirə bilməz."[3]

"Nə öncə, nə də sonra batil ona yol tapa bilməz. O, Müdrik, Tərifəlayiq Allah tərəfindən nazil edilmişdir."[4]

Əhli ünnənin icmasına görə Quranın təhrif olunduğunu, Ona əlavələr edildiyini, Ondan hansısa ayələrin çıxardılaraq Quranın naqisləşdirildiyini iddia edən kəs Allahın Hicr surəsi, 9-cu ayədəki vədini yalan saymış olur və beləcə də İslam dinindən çıxmış olur.

Əhli sünnə alimi ibn Qudamə buyurur: "**Müsəlmanlar arasında ixtilaf yoxdur ki, əgər bir şəxs Qurandan bir surəni və ya bir ayəni, yaxud bir kəlməni və ya bir hərfi belə inkar etsə o ittifaqla kafirdir."**[5]

Qazi İyad demişdir: "**Bil ki, kim Quranın, yaxud müshəfin nəyinəsə qiymətsiz bir şey kimi baxsa, yaxud onları söysə, ya da ki, onu və ya ondan bir şeyi, yaxud onda göstərilən bir hökmü və ya xəbəri yalan saysa, yaxud onun (Quranın) inkar etdiyini isbat etsə və ya onun isbat etdiyini bilə-bilə inkar etsə, yaxud ondan bir şeyə şəkk etsə, o şəxs bütünlüklə elm əhlinin nəzərində kafir sayılar."**[6]

Belə bir hökmü şeyxulislam ibn Teymiyyə də qeyd etmişdir.[7]

Şübhələrə cavab

1- Bəzi şiələr bu inkar edilməz faktları qəbul etmək məcburiyyətində olduğundan, aciz qalıb bu cür iddia irəli sürürlər: **"Bu alimlər həqiqətən Quranın təhrif olunduğuna etiqad etmişdirlər. Lakin, buna baxmayaraq bu adları çəkilən alimlər şiə məzhəbinin ən böyük alimləri və əsas qaynaqlarıdır. Onlar ictihad əhlidir və bu məsələdə də sadəcə ictihad edib, xəta etmişdirlər!"**

Bu iddiaya cavab olaraq deyirik ki, bu iddianı irəli sürənlər necə də cahildirlər! Məgər İslam dinində etiqad olunması zəruri olan hər hansısa bir məsələdə ictihad etmək olarmı?! Əlbəttə ki, xeyr! Çünki müsəlmanların icma

---

[1] "əl-İtqam", 1/63
[2] Hicr surəsi, 9
[3] Kəhf surəsi, 27
[4] Fussilət surəsi, 42
[5] "Lumətul-İ'tiqad" kitabı, səh 19
[6] "əş-Şifə" kitabı
[7] "Sarimul-Məslul" kitabı, səh 586

etdiyi şəri qaydalardan biri budur ki, haqqında Kitab və Sünnədə qəti dəlil olan bir məsələdə ictihad etmək caiz deyildir!

Məsələn, Uca Allahın öz Kitabında Muhəmmədin *(sallallahu aleyhi və səlləm)* sonuncu peyğəmbər olduğunu bildirdiyi halda, bir kimsənin ictihad edərək, "Muhəmməddən *(sallallahu aleyhi və səlləm)* sonra da peyğəmbər gələcəkdir" söyləməyi batildir və bu cür ictihad məqbul sayılmaz!

Quranın da hifz edilməsinə dair Qurani-Kərimdə açıq-aşkar dəlil vardır. Məhz, bu səbəbdən Qurani-Kərimin Allah tərəfindən hifz edilməsi etiqad olunması zəruri olan məsələdir! Uca Allah Qurani-Kərimi hər bir dəyişiklik və təhrifdən qoruyacağına dair vəd vermişdir.

Allah Təala buyurur: "**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."**[1]

2- Bəzi şiələr iddia edirlər ki, **"Quranın təhrifinə etiqad etmək, bizim məzhəbin zəruriyyətindən deyildir! Əgər bizim əqidəyə görə, Quranın təhrif olunmasına etiqad etmək vacib olsaydı, o zaman bəzi şiə alimlərimiz bu etiqadi məsələyə müxalif olmazdılar və məlumdur ki, Murtəza, Əbu Cəfər ət Tusi, Əbu Əli ət-Təbərsi, Əbul Qasim əl-Xoyi Qurani-Kərimin təhrif olunmadığını və əlimizdə olan Quranın Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **nazil edilmiş həqiqi Quran olduğunu söyləmişdirlər."**

Bu şübhənin cavabında deyirik ki, şiə alimləri ittifaq ilə Quranın təhrif olunduğuna etiqad etmişdir. Bu icmanı onlar öz kitablarında zikr etmişdir. Necə ki, yuxarıda bir neçə mənbəni dəlil olaraq göstərmişdik. Fəqət, bir neçə şiə alimi bu icmaya müxalif olmuşlar ki, onlar da bunu sadəcə təqiyyə (təqiyyə- daxildə doğrunu gizlədib, onun ziddini (yəni, yalanı) üzə çıxarmağa deyilir!) ilə etmişdilər. Çünki, təqiyyə etmək şiə məzhəbinin əsaslarındandır və şiə məzhəbi təqiyyə (yalan) üzərində qurulmuşdur.

Həmin sadalanan və icmaya müxalif olan bir neçə alim haqda olan iddiaya isə elə məşhur şiə alimi Nemətullah əl-Cəzəiri-nin sözləri ilə cavab veririk:

"Şiə alimləri icma etmişdir ki, Quranın təhrifi haqda olan mütəvatir (çoxlu yollarla rəvayyət olunmuş) xəbərlər səhihdir. Fəqət, buna (yəni, bu icmaya) Murtəza, şeyx Saduq və Şeyx ət-Təbərsi müxalif olmuşdur... Şübhəsiz ki, bu (yəni, Quranın təhrifini inkar etmək) onlar tərəfindən təqiyyə ilə deyilmişdir!"[2]

Əbul Qasim əl-Xoyiyə gəldikdə isə, onun Quran haqqında olan etiqadından qarşıda bəhs edəcəyik.

3- Bəzi şiələr iddia edir ki**, bu alimlərin Quranın təhrif olunması haqqda olan sözləri və gətirilən rəvayyətlər ləfzi təhrif deyil, mənaca (yəni, təfsirdə olan) təhrifdir.**

Bu şübhənin cavabında isə deyirik ki, bu sözü ancaq aciz bir kəs deyə bilər. Bu iddiaya bir neçə yolla cavab vermək mümkündür:

I- Yuxarıda sadalanan mötəbər şiə alimlərindən olan dəlillər, heç də Quranın mənaca təhrifinə aid deyildir. Onlar məhz, ləfzi təhrifə işarə etmişdirlər. Məgər Qummi öz "Təfsirul-Qummi" kitabında **"..bizi müttəqilərə imam et!" (Furqan surəsi, 74)-ayəsi Muhəmmədə** *(sallallahu aleyhi və səlləm)* **bu cür nazil**

[1] Hicr surəsi, 9

[2] "əl-Ənvarun Numəniyyə", 2/357-358

olmuşdur: "...müttəqilərdən bizə imam seç!"- deyərkən burada mənaca təhrifəmi işarə edirdi?! Əlbəttə ki, xeyr! Çünki, bu açıq-aşkar ləfzi təhrifdir. Və yaxud, Kuleyni "**Həqiqətən, Cəbrayılın Muhəmmədə gətirdiyi Quran on yeddi min ayə idi.**" rəvayyətini zikr edərkən və Məclisi bu rəvayyətə səhih deyərkən, burada məna təhrifimi qəsd edirdilər?

Əlbəttə ki, xeyr! Çünki, məlumdur ki, əlimizdə olan Qurani-Kərimdə 6236 ayə vardır. Yəni, şiələrə görə Quranın ləfzinin üçdə ikisi yox olmuşdur.

Və yaxud Nemətullah əl Cəzairinin bu sözləri ləfzi təhrifə işarə deyilmi? "**Mütavatir gələn xəbərlər dəlalət edir ki, Quranda kəlam, maddə və irab təhrifi baş vermişdir. Bu xəbərlərin səhih olduğu haqqda əshabımız (yəni, şiə alimləri) ittifaq etmişdir.**"

II- Əgər bu təhrif ləfzdə deyil, təfsirdə olan təhrifdirsə, o zaman Mehdinin gələrkən özündə olan Quranın gətirməsinin nə mənası var?

III- Həmçinin, şiələrin Vilayət və Nureyn surələrinin Qurandan tamamilə çıxarıldığını iddia etmələri. Bunu da Məclisi[1], Həbibullah əl Həşimi əl Xoi[2] və Nuri ət Təbərsi[3] öz kitabında qeyd etmişdir.

IV- Mötəbər şiə alimləri Məclisi[4], Həbibullah əl-Həşimi əl-Xoi[5] Qurani-Kərimdə olan təhrifin mənaca (yəni, təfsirdə) deyil, ləfzi təhrif olunduğu söyləmişdirlər.

Son olaraq, bu iddianı mötəbər şiə alimi olan Sultan Muhəmməd əl Xorasaninin sözləri ilə puça çıxarmaq olar:

"(Quranda olan) təhrifin Quranın ləfzi ilə deyil, mənaca olduğunu söyləmək xurafatdır və kamil kimsələrə yaraşmayan bir şərhdir."[6]

4- Bəzi şiələr isə bu cür iddia irəli sürürlər: "Biz bu alimlərin Quranın təhrif olunduğu etiqadında olduqları bilib, onlara etimad etmirik və onları inkar edirik. Lakin, bu o demək deyil ki, biz öz məzhəbimizi tərk etməliyik! Xeyr, biz bu alimləri inkar etsək də, öz məzhəbimizdə qalırıq!"

Bu iddiaya cavab olaraq deyirik ki, bu sadalanan şiə məzhəbinin ən mötəbər alimləri və məzhəbin dayaqlarıdır. Onların bu küfrlə dolu əqidəsi şiə məzhəbinin də küfrlə dolu olmasına açıq-aşkar bir sübutdur. Çünki, bütün şiə mənsubları din adı ilə etdikləri bütün əməllərində məhz bu mötəbər alimlərə əsaslanırlar. İstər Quranın təhrif edilməsi etiqadında olan, istərsə də təqiyyə edərək, bu etiqadda olmadığını iddia edən şiə alimlərinin hər biri öz əsərlərində yalnız yuxarıda adlarını çəkdiyimiz və Quranın təhrif olunduğu etiqadında olduqlarını bəyan edən alimlərə dayanır, onların kitablarından istifadə edirlər. Bunlara misal olaraq qarşıda haqqında geniş bəhs edəcəyimiz Əbul Qasim əl Xoyini göstərmək olar. Onun təqiyyə ilə olsa da, Quranın təhrif edilmədiyini söyləməsinə baxmayaraq, öz əsərlərində yuxarıda adları çəkilən alimlərə istinad etməsi və onları tərif etməsi kimi...

---

[1] "Təzkiratul-Əimmə", səh 18, 21

[2] "Minhəcul Bəraa fi Şərhi Nəhcul-Bələğa", 2/217 (Beyrut çapında, Muəssəsətul Vafə)

[3] "Fəslul-Xitab fi İsbəti Təhrifi Kitəbi Rabbil- Ərbab' kitabı, səh 180

[4] "Miratul-U'qul", 12/525

[5] "Minhəcul Bəra'a fi Şərhi Nəhcul-Bələğa", 2/216 (Beyrut çapında, Muəssəsətul Vafə)

[6] "Bəyənus-Səa'də fi Məqamətil İbədə", 1/19-20 (Beyrut çapında, Muəssəsətul A'ləmi)

Əgər, məzhəbin dayağı sayılan bu alimlər əlimizdə olan Quranın həqiqi Quran olduğuna etiqad etmədikləri səbəbindən öz etibarlılıqlarını itirirlərsə o zaman şiələr necə onlara əsaslana bilərlər? Yəni, necə olur ki, bir məzhəb hər hansısa məsələdə insanı dindən çıxaran bir əməl sahibinə istinad edir və onun yazdığı əsərlərdən dəlil olaraq istifadə edir? Əgər müəllif öz etimadını itirirsə, demək ki, onun əhli beytdən etdikləri rəvayyətlər də etibarlıqlarını itirir və uydurma hesab edilir.

Necə olur ki, bir kəs Quranın dəyişdirilmədiyinə iman etsin amma, bu şiə alimlərini mötəbər hesab etsin? Əgər bir kəs bu alimləri mötəbər saymazsa, o zaman şiə məzhəbini tərk etmək zərurətində olacaqdır. Çünki, şiə məzhəbində hər hansısa bir dəlil ancaq bu alimlərdən yəni, Quranın təhrif olunması etiqadında olan alimlərdən götürülür! O alimlər ki, onlar şiə məzhəbinin qaynağı və qurucularıdır.

"Əbul Qasim əl Xoyi, Quran təhrifi etiqadında olmamışdır"- iddiasına cavab

Nəcəf elm əhlinin lideri və mötəbər şiə alimi olan Əbul Qasim əl Xoyi öz kitabında deyir: "**Quranın təhrif edilməsi haqqında olan hədis xəyal və xurafatdır. Bunu (Quranın təhrif edildiyini) ancaq ağlı olmayan bir kəs söyləyər.... İnsaflı və düşüncəli bir ağıl sahibi isə bunun batil və xurafat olduğuna şübhə etməz!"**[1]

Xoyinin bu söylədiklərindən aydın olur ki, o ya öz məzhəbinin mötəbər alimlərinin bu haqqda olan etiqadından xəbərsizdir, ya təqiyyə edərək bunları söyləyir, ya da Kuleyni, Qummi, Təbərsi, Məclisi, Hurr Amili, Mufid, Nuri Təbərsi, Nemətullah əl Cəzairi və s. şiə məzhəbinin nəhəngləri həqiqətən onun dediyi kimi, ağılsızdırlar!

Cavab olaraq deyirik ki, Xoyi heç də bu sadalanan alimlərdən və onların etiqadından xəbərsiz deyildir. Həmçinin, bu alimləri heç bir şiə alimi ağılsızlıqda ittiham etməmişdir. Ortada yalnız bir variant qalır: Xoyi bu sözləri təqiyyə ilə demişdir. Bunu bir neçə yol ilə isbat edəcəyik, oxucu isə sonda Xoyi haqqında öz hölmünü verə bilər.

1- Xoyi Allahın kitabına tənə edərək onun təhrif olunduğunu iddia edən Əli ibn İbrahim əl-Qummini öz kitabında ağız dolusu tərifləmişdir.[2]

2- Xoyi "Qureyşin iki bütü duası"nı öz kitabında zikr etmiş və fətva vermişdir. Bu duanın iki yerində Əbubəkr və Ömər *(radiyallahu anhumə)* Quranı təhrif etməkdə ittiham olunurlar:

"Allahım, Qureyşin iki bütünə lənət et!.... Axı onlar Sənin əmrinə müxalif oldular.... Sənin Kitabını (Quranı) təhrif etdilər..... Allahım, onları təhrif etdikləri hər bir ayə sayı qədər lənətlə!"[3]

3- Xoyi etiqad etmişdir ki, Əlinin özünə məxsus Quranı vardır ki, həmin Quran da bu gün əlimizdə olan Qurandan fərqlidir. Xoyi öz kitabında deyir:

---

[1] "əl-Bəyən fi Təfsiril-Quran", səh 278

[2] "Mu'cəmu Ricəlil-Hədis"

[3] "Tuhfətul Avam Məqbul Cədid", səh 422 (Urdu dilində); "Tuhfətul Avam Mutəbər və Mukəmməl", səh 303

"Və heç şübhəsiz ki, Möminlərin əmirinin (Əlinin) surələrin fərqli tərtibi ilə olan mushəfi vardır. Alimlərin belə bir mushəfin olduğunu qəbul etmələri, bizim də onu isbat etməyimizi asanlaşdırır."[1]

4- Xoyiyə görə tilavətin nəsxi, elə Quran təhrifi deməkdir. Quran və Sünnədə tilavətin nəsxi sabit olduğundan, demək elə çıxır ki, Xoyi Quranın təhrif edildiyini iddia etmiş olur.

Xoi deyir: "**Tilavətin nəsxi, eyni ilə Quranın təhrifidir. Əhli sünnəyə görə tilavət nəsxi sabit olduğundan, onlara görə Quran təhrif olunmuş hesab olunur."**[2]

Burada Xoyi Əhli sünnəyə iftira ataraq, Əhli sünnənin də Quranın təhrif olunduğuna etiqad etdiyini söyləyir! Təbii ki, bu cür iftira Xoyinin digər kitablarında da mövcuddur. Bu cür iftiranın səbəbi ondan irəli gəlir ki, Xoyi artıq şiələrin mötəbər kitablarında həkk olunduğu səbəbi ilə Quranın təhrifinə dair olan rəvayyətləri inkar edə bilmədiyi üçün yəni, özlərində olan ləkəni təmizləyə bilmədiyi üçün Əhli sünnəyə də bu ləkəni yaxmağa çalışır. Lakin, bu cəhdlər əbəsdir və heç kəs Əhli sünnə kitablarında Qurani-Kərimin təhrif olunması haqqda bir kəlmə də tapa bilməz.

Həmçinin, Xoyi sonrakı səhifələrdə deyir: "**Şübhəsiz ki, tilavətin nəsxi elə məhz Quranın təhrifidir."**[3]

Burada onu da qeyd etmək lazımdır ki, hal-hazırda şiələrin iftixarla vurğuladığı bir neçə alim var ki, onlar Qurani-Kərimin təhrif olunmadığını söyləmişdirlər. Doğrudur, Nemətullah əl Cəzairi bu alimlərin təqiyyə edərək bu cür söylədiyini yazmışdır. Fərz etsək ki, bu alimlər təqiyyə etməmişdilər və onlar həqiqətən, Quranın təhrif olunmadığına etiqad etmişdirlər, yenə də o alimlər Xoyinin nəzdində Quranın təhrif olunduğuna etiqad etmiş sayılırlar. Çünki, həmin alimlər tilavətin nəsxini qəbul etmiş və bunu öz kitablarında qeyd etmişdirlər. Xoyi isə, (yuxarıda qeyd etdiyimiz kimi) tilavətin nəsxini elə Quranın təhrifi olduğunu söyləmiş və bunlar arasında fərq görməmişdir. Həmin (Quranın təhrif olunmadığını söyləyən) şiə alimlərdən biri olan

Əbu Əli ət Təbərsi deyir: "**Nəsxin üç növü vardır... Bu üç növdən biri də tilavətin nəsxidir."**[4]

Həmçinin, digər şiə alimi Murtəza deyir: "**Nəsxin üç növü vardır... Bu üç növdən biri də tilavətin nəsxidir."**[5]

Xülasə, şiələrin "Bunlar Quranın təhrifinə etiqad etməyib" deyərək, iftixarla adlarını çəkdikləri bu alimlər də Xoyinin nəzərinə görə bu batil etiqadda (Quran təhrif olunduğu etiqadında) olmuş hesab olunur.

Bir maraqlı məqamı da qeyd edək: Məclisi öz kitabında şiələrin doqquzuncu imamı olan Muhəmməd ibn Əli ibn Musa ər Rzadan rəvayyət edir

---

[1] "Təfsirul Bəyən", səh 243
[2] "Təfsirul Bəyən", səh 219
[3] "Təfsirul Bəyən", səh 224
[4] "Məcmu'at ul-Bəyən fi Təfsiril Quran", Bəqərə-106-nın təfsiri
[5] "əz-Zəria", 1/428-429

ki, o Bəqərə surəsi, 106-cı ayənin təfsirində tilavətin nəsxi olduğunu qeyd etmişdir.[1]

Əgər Xoyiyə görə tilavətin nəsxi elə Quranın təhrifidirsə, demək ki, məsum imam saydığı Muhəmməd ibn Əli ibn Musa ər Rza da Quranın təhrif olunduğuna etiqad etmişdir. Əgər Əhli beytdən olan bu imam Quranın təhrif olunduğuna etiqad etmişdirsə, o zaman Xoyi və digər şiələr nə cürətlə Quranın təhrif olunduğuna etiqad etmirlər?! Axı onlar dinlərini məhz,bu məsum imamlardan götürürlər!

5- Xoyi deyir: **"Bir qism alim "Alimlər alimi" şeyx Mufid başda olmaqla, digər alimlərə istinad edərək Quranın təhrif olunmadığını söyləmişdir."**[2]

Burada Xoyinin açıq-aşkar yalan söylədiyinin şahidi oluruq. Çünki, yuxarıda Mufidin bu etiqadda olduğuna dair, onun öz kitabından bir neçə dəlil göstərmişdik. Həmçinin, Mufid öz kitabında Quranın indiyə kimi dəyişmədiyini, lakin gələcəkdə dəyişmək ehtimalı olduğunu qeyd etmişdir ki, bu da Quranın təhrifinə etiqad etməkdir.

6- Əbul Qasim əl Xoyi bu xəbərlərin mütavatir olması baradə suala belə cavab verir: "-" الـ سلام عـ لـ يهم الـ معـ صومـ ين عن بـ عـ ضها بـ صدور الـ قطع تـ ورث الـ روايـ ات كـ ثرة أن إلا".

"Rəvayətlərin çox olması, bəzilərinin həqiqətən də məsumlardan (imamlar qəsd edilir) varid olduğuna dəlalət edir... Bu rəvayyətlərin içində mötəbər olanları da mövcuddur. Rəvayyətlərin hər birinin sənədi üzərində dayanıb, şərh verməyə ehtiyac duymuruq!"[3]

"Bu xəbərlərin bəzisi zəif olsa da, (Quranın təhrifi barədə) səhih olan rəvayyətlər- onların mütəvatir olması iddiasını irəli sürmək üçün kifayətdir."[4]

7- Xoyi öz kitabında bu rəvayyəti zikr etmişdir: **"Əbu Abdullah (Cəfər əs-Sadiq) demişdir: "Allah Quranda yeddi nəfərin adlarını çəkmişdir. Qureyş bunlardan altısını silərək, yalnız Əbu Ləhəbin adını saxlamışdır."**[5]

8- Həmçinin, Xoyi Muhəmməd ibn Əbu Zeynəbin tərcümeyi-halında demişdir:

"**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi?" (Şuəra, 221) ayəsinin təfsirində Səid ən-Nəhdinin onlardan biri olduğunu söyləmişdir."**[6]

9- Xoyi öz kitabında yalan danışaraq, sadəcə cahilləri aldatmağa səy göstərir:

"Şiə alimlərinin məşhur və qəti olaraq görüşü odur ki, Quran təhrif edilməmişdir.

Sonra isə öz sözlərinə zidd olaraq deyir: **"Şiə alimlərindən bir qismi təhrifin baş verdiyi görüşünü söyləmişdirlər."**[7]

10- Diqqət ediləsi məqamlardan birisi də odur ki, Xoyi Qurani-Kərimin təhrif edildiyinə etiqad edənləri təkfir etməmişdir. Çünki, o da çox gözəl bilir ki,

---

[1] "Bihərul Ənvar", 4/116 (Bab 3, rəvayət 42)
[2] "Təfsirul Bəyən" kitabı, səh 219
[3] "Təfsirul Bəyən" kitabı, səh 245-246
[4] "Məzkur", səh 259
[5] "Məzkur", 9/47
[6] "Mucəmu Ricəlil Hədis", 14/245 (Beyrut çapında)
[7] "Təfsirul Bəyən", səh 219

bu şiə məzhəbinin öndər alimləri bu etiqadda olmuşdur və onların təkfir edilməsi məzhəbin çökməsi deməkdir.

Son olaraq bir daha qeyd edək ki, yuxarıda sadalanmış şiə alimləri, Əbul Qasim əl Xoyi və digər mötəbər şiə alimləri Quranın təhrif olunduğuna etiqad etmişlər. Xoyi Quranın təhrif olunmadığını sadəcə təqiyyə ilə demişdir. Çünki, ona görə yalan danışmaq (yəni, təqiyyə etmək), hətta, təqiyyə ilə (yəni, yalandan) and içmək də caizdir. Necə ki, o öz kitabında yazır: **"Cəfər əs-Sadiq demişdir: "Təqiyyə ilə and içə bilərsiniz."**[1]

[1] "ət-Tənqih Şərhul Urvatil-Vusqa", 4/278-307